"ELM VƏ İNNOVATİV TEXNOLOGİYALAR" BEYNƏLXALQ ELMİ ARAŞDIRMALAR JURNALI

ƏLAQƏ

Ü: Moskva prosp.67 , Bakı AZ1012
T: +994 12 431-47-67 (4423)
F: +994 12 431-58-81
E: journalofsit@gmail.com
V: www.ejsr.org

Baku, Azerbaijan

"Elm və İnnovativ Texnologiyalar "
beynəlxalq elmi araşdırmalar jurnalı

Jurnal haqqında

"Elm və İnnovativ Texnologiyalar " beynəlxalq elmi araşdırmalar jurnalı ildə 5 dəfə dərc olunan , ictimaiyyət üçün açıq olan resenziyalı, elmin kompleks problemləri, humanitar və ictimai siyasi, tətbiqi, təbiət sahələrini əhatə edən elmi-tədqiqat jurnalıdır.Jurnalda indiyədək dərc olunmayan, orijinallığı, yeniliyi və aktuallığı, ciddi elmi arqumentasiyası, qabaqcıl nəzəri və praktiki əhəmiyyəti ilə diqqəti cəlb edən elmi-texniki məqalələr dərc edilir.

Əsas məqsədimiz elmdə baş verən yenilikləri beynəlxalq ictimaiyyətə çatdırmaq, yerli və xarici alimlər arasında elmi ünsiyyət qurmaqdır. Jurnal eyni zamanda konfranslar, simpoziumlar, elmi məktəblər, ümumiyyətlə, elmi həyatda cərəyan edən hadisələr haqqında məlumatlara da səhifələrində yer verir.Azərbaycan elminin beynəlxalq ictimaiyyətə çatdırılması, yerli alimlərlə müxtəlif ölkələrin alimləri arasında elmi kommunikasiyaların yaradılması nəşrin qarşıya qoyduğu başlıca vəzifələrdəndir."Elm və İnnovativ Texnologiyalar " beynəlxalq elmi araşdırmalar jurnalı məzmununa görə elmi- tədqiqat nəşr kimi fəaliyyət göstərir. Jurnal əsasən Azərbaycan, Rus , İngilis və Türk dillərində elmi məqalələri dərc edir.

Jurnalda ikili rəy sistemindən istifadə olunaraq, məqalələr ən azı 2 dəfə yoxlanıldıqdan sonra dərc üçün təsdiqlənir.Akademik və professorlarla yanaşı elmin müxtəlif sahələrində tədqiqat aparan gənc aspirant və doktorantlar, tədqiqatçılar da jurnalda məqalə çap etdirə bilərlər.

Etik qaydalar

"Elm və İnnovativ Texnologiyalar" beynəlxalq elmi araşdırmalar jurnalı və onun elmi redaktorları nəşr fəaliyyətinin bütün mərhələlərində ədalətli və peşəkar iş icra etməyi öhdəliklərinə götürürlər. Jurnalın nəşrində iştirak edən bütün tərəflərin (müəlliflər, jurnalın redaktorlar, rəyçilər və nəşriyyatçı) gözlənilən etik qaydalara əməl etmələri tələb olunur.

Məqalə təqdimatı

Məqalələr MS-Word proqramı vasitəsilə hazılanmalı,electron poçt vasitəsilə redaksiyaya təqdim olunmalıdır.

Bunun üçün müəlliflər məqalələrini müəlliflər üçün müəyyənləşdirilmiş beynəlxalq qaydalara uyğun şəkildə tərtib edərək, journalofsit@gmail.com ünvanına göndərə bilərlər.

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları,çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları, iş və mobil telefon nömrələri göstərilməlidir.
2. Məqalədə açar söz (Azərbaycan, İngilis və Rus dillərində, 5 -6 sözdən ibarət olmalıdır), xülasə (Azərbaycan, İngilis və Rus dillərində), giriş,metod, müzakirə , nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla 10 səhifədən az olmamalıdır.
3. Məqalənin xülasəsi 200-350 sözarası olmalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.
4. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalıdır. Xülasə elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır.
5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.
6. Məqalə A4 formatında, 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 14 şriftilə yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxardan 25 mm və aşağıdan 20 mm) boşluq buraxılmalıdır.
7. Məqalə Azərbaycan, Türk , İngilis və Rus dillərində qəbul ediləcəkdir.
8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.Ədəbiyyat siyahısı MLA (Modern Language Association) formatında yığılmalıdır.
9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.
10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.
11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.
12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

Redaksiya heyəti jumalın tələblərini təmin etməyən məqalələri dərc etməmək hüququnu özündə saxlayır